

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 78 (23.720)

*30 aprel 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Videokonfrans formatında görüş keçirilib

Aprelin 29-da "Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sisteminin İnkişafı Layihəsinin hazırlanması üzrə texniki yardımın həyata keçirilməsinə dair" videokonfrans formatında ilkin missiyanın görüşü olmuşdur.

Görüşdə Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin ölkə direktoru xanım Kandis MakDeyqan, Bankın Mərkəzi və Qərbi Asiya Departamentinin Ətraf mühit, təbii sərvətlər və kənd təsərrüfatı şöbəsinin direktoru xanım Yasmin Siddiqi, Bankın su ehtiyatları üzrə baş mütəxəssisi, missiyanın rəhbəri Yajou Jou, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, İqtisadiyyat, Maliyyə və Kənd Təsərrüfatı nazirliklərinin, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri iştirak etmişlər.

Görüş zamanı layihənin hazırlanması və icra mexanizmi üzrə fikir mübadiləsi və müzakirələr aparılmışdır. Bildirilmişdir ki, Asiya İnkişaf Bankı 2022-2024-cü illər üçün Azərbaycan üzrə ölkə əməliyyatlarının biznes-planını hazırlayır ki, sözügedən texniki yardımın nəticəsi olaraq suvarma və drenaj sisteminin inkişafı üzrə müvafiq kredit layihəsinin 2022-ci ildə həmin planda göstərilməsi nəzərdə tutulmuşdur.

Qeyd edək ki, Asiya İnkişaf Bankı 6 fevral 2020-ci il tarixdə "Naxçıvan Muxtar Respublikasında Suvarma və Drenaj Sisteminin İnkişafı Layihəsi"nin hazırlanması üzrə texniki yardımla təmin olunmasını təsdiq etmişdir. 2020-ci ilin dekabr ayında Asiya İnkişaf Bankı qrant əsasında maliyyələşdirilən texniki yardım üzrə məsləhətçi heyətin seçimini başa çatdırmış və müvafiq müqavilələr imzalanmışdır.

27-28 aprel 2021-ci il tarixlərdə Asiya İnkişaf Bankı ilə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında layihə ilə bağlı virtual görüşlər keçirilmiş, ətraflı müzakirələr aparılmışdır.

Videokonfrans formatında keçirilən növbəti görüşdə əməkdaşlığın yüksək səviyyədə olduğu qeyd olunmuş, su və kanalizasiya ilə bağlı infrastruktur layihələrini dəstəklədiyinə görə Asiya İnkişaf Bankına minnətdarlıq edilmiş, Naxçıvan Muxtar Respublikasının Asiya İnkişaf Bankı ilə əlaqələrini bundan sonra da davam etdirməkdə maraqlı olduğu vurğulanmışdır.

Texniki yardımın uğurla icrası və layihənin vaxtında nəzərə alınmasını təmin etmək məqsədilə yerində görüşlərin keçirilməsi üçün Asiya İnkişaf Bankının nümayəndə heyətinin yaxın günlərdə muxtar respublikaya səfəri planlaşdırılır.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda iftar payları verilib





Muxtar respublikada Ramazan ayı və oruclluq mərasimləri mənəvi dəyərlərimizə uyğun keçirilir. Pandemiya dövründə kütləvi iftar mərasimlərinin yerinə iftar paylarının verilməsi həm mənəvi dəyərlərimizin yaşadılmasına, həm də əhalinin sağlamlığının qorunmasına xidmət edir.

Aprelin 29-da müqəddəs Ramazan ayı münasibətilə Naxçıvan şəhərindəki məscidlərdə dindarlara, məscid əhlinə, eləcə də ali təhsil müəssisələrində təhsil alan ölkəmizin digər bölgələrindən olan və əcnəbi tələbələrə, Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicə alan xəstələrə, Psixi Xəstəliklər Dispanserinə, "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsinin, Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin kollektivlərinə və sosial qayğıya ehtiyacı olanlara 3800 iftar payı verilmişdir.

**"Şərq qapısı"**

## Cari ilin ilk rübü bank fəaliyyəti üçün uğurlu olub

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 aprel 2021-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 220 milyon 965 min manata çatıb. Bu kreditlərin 12 milyon 547 min manatı qısamüddətli, 208 milyon 391 min manatı isə uzunmüddətli kreditlərin payına düşür.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 31 milyon 790 min manat və ya 16,8 faiz artmışdır.

Bank və kredit təşkilatları tərəfindən 2021-ci ilin yanvar-mart ayları ərzində 48 milyon 368 min manat kredit verilmişdir ki, bunun da 8 milyon 830 min manatını qısamüddətli, 39 milyon 538 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditlərin 4 milyon 700 min manatı sənaye, 4 milyon 157 min manatı kənd təsərrüfatı, 1 milyon 78 min manatı kommersiya, 1 milyon 165 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 30 min manatı səhiyyə və sosial xidmət sahəsinə, 37 milyon 238 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilmişdir.

Muxtar respublikamızda icrası uğurla davam etdirilən "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq regionda fəaliyyət göstərən bank qurumlarının ilk rübü ərzində qeyri-nağd ödənişlərin həcminin artırılması istiqamətində gördüyü işlər də uğurlu olub. Belə ki, muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1437-yə çatdırılıb. Aparılmış tədbirlər nəticəsində nağdsız ödənişlərin həcmindəki artım dinamikası bu dövrdə də qorunub saxlanılıb və 2021-ci ilin yanvar-mart aylarında POS-terminal və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 10 milyon 590 min 718 manat təşkil edib.

Təhlil olunan dövrdə bankların əhali ilə apardığı işlərin digər bir mühüm istiqaməti olan əmanətlərin cəlb olunmasında da mühüm işlər görülüb. Belə ki, 1 aprel 2021-ci il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 12 milyon 6 min manat, o cümlədən milli valyuta ilə 11 milyon 127 min, xarici valyuta ilə 879 min manat həcmində təşkil edib. Əvvəlki dövrlə müqayisədə banklara qoyulan əmanətlərin həcmində milli valyuta ilə artım, xarici valyuta ilə cəlb edilən əmanətlərin həcmində isə azalma dinamikasının olduğunu görürük.

Statistik göstəricilərin təhlili onu göstərir ki, muxtar respublikanın bank sektorunda dayanıqlı fəaliyyət təmin olunmuşdur. Əldə olunmuş nəticələr qarşıdakı dövrdə də muxtar respublikada elektron ödəniş məkanının formalaşdırılması, nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi kimi mühüm vəzifələrin uğurla həll olunacağını proqnozlaşdırmağa imkan verir.

***Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublika İdarəsi***

## "İxrac ili"nin davam etdirilməsi yerli məhsulların xarici bazarlara çıxarılmasına geniş imkanlar açır

***Ümumi daxili məhsul istehsalının 88 faizinin özəl bölmənin payına düşdüyü muxtar respublikada bu gün əlverişli investisiya mühiti yaradılmışdır. Mövcud şərait iqtisadiyyatın dinamik inkişafını təmin etmiş, yeni iş yerlərinin açılmasına səbəb olmuş, əlavə ixrac imkanları yaranmışdır.***







Məlum pandemiya səbəbindən 2021-ci ilin muxtar respublikada "İxrac ili" kimi davam etdirilməsi yerli sahibkarlara ixrac üçün yeni imkanlar açır.

İxrac imkanları o zaman yaranır ki, yerli istehsal dinamik inkişafda olsun, daxili bazarın təminatı yüksək səviyyədə təşkil edilsin, rəqabətədavamlı məhsul bolluğu yaransın. Muxtar respublika iqtisadiyyatının inkişafına nəzər salsaq, bu potensialın formalaşdığını görə bilərik. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, ilin birinci rübündə muxtar respublikada ümumi daxili məhsul istehsalı 557 milyon 426 min 300 manat olmuşdur ki, bu da bir il öncəki göstəricidən 0,6 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,3 faiz artaraq 1207,1 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,4 faizlik payla sənaye sahəsi tutmuşdur. 2021-ci ilin yanvar-mart aylarında muxtar respublikada 257 milyon 37 min 800 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəki göstəricini 1 faiz üstələmişdir. Sənayedə istehsalın həcminin artması nəticəsində 2021-ci ilin yanvar-mart aylarında 41 milyon 613 min 300 ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunmuşdur.

Kənd təsərrüfatının inkişafında da müsbət dinamika qorunub saxlanılmışdır. Cari ilin ilk rübündə bir il öncəyə nisbətən 4,2 faiz çox, yəni 31 milyon 270 min 400 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuş, 12 milyon 238 min 600 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur.

Bəhs etdiyimiz dövrdə, ümumilikdə, muxtar respublikanın xarici ticarət dövriyyəsi 79 milyon 733 min 800 ABŞ dolları təşkil etmişdir. Bu dövriyyənin 53 milyon 851 min 900 ABŞ dollarını ixrac, 25 milyon 881 min 900 ABŞ dollarını idxal təşkil etmiş və 27 milyon 970 min ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Qeyd edək ki, ixracyönümlü məhsulun əldə olunması, ilk növbədə, istehsala əsaslanır. Bu gün muxtar respublika iqtisadiyyatında istehsalyönümlü müəssisələrin yaradılması, istehsalda innovativ yeniliklərin tətbiqi diqqət mərkəzində saxlanılır. Dövlət tərəfindən belə sahələrin yaradılmasına güzəştli kreditlərin verilməsi, sahibkarlıq subyektlərinin fəaliyyəti üçün "bir pəncərə" sisteminin tətbiqi, eləcə də nəzərdə tutulmuş digər stimullaşdırıcı tədbirlər istehsalçılar üçün geniş imkanlar açır. Məsələn, 2021-ci ilin ilk rübündə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 20 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 41 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilmişdir.

Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2021-ci ilin yanvar-mart aylarında 4 milyon 700 min manat kredit verilmişdir.

Kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində saxlanılmışdır. Cari ilin ilk rübündə müxtəlif təsərrüfat subyektlərinə 4 milyon 156 min 800 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 15,7 faiz çoxdur.

Bu sahədə görülən işlərin nəticəsidir ki, qeyd olunan dövrdə muxtar respublikada 6 heyvandarlıq təsərrüfatının yaradılması, 3 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 7 heyvandarlıq təsərrüfatının yaradılması, 1 heyvandarlıq kompleksinin yenidən qurulması və 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Bundan əlavə, muxtar respublikada kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması, istehsal edilən məhsulların ixrac potensialının artırılması və kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" təsdiq edilmişdir. İcrasına yeni başlanılan Dövlət proqramı aqrar məhsulların istehsalında yeni mərhələnin başlandığından xəbər verir. Bütün bunlar isə onu göstərir ki, hazırda muxtar respublikamızda həm sənaye, həm də kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün ciddi işlər görülür ki, bu da sahibkarlara ixracyönümlü məhsul istehsal etməyə, yerli məhsullarımızın xarici bazarlara çıxarılmasına geniş imkanlar açır.

**Famil HƏSƏNOV**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***

***Şərur rayonu muxtar respublikamızın ən böyük bölgələrindən biridir. Ulu Tanrı bu yurd yerindən öz səxavətini əsirgəməyib. Torpaqları münbit, sakinləri zəhmətsevərdirlər. Torpağa halal qazanc mənbəyi kimi baxırlar. Çəkdikləri zəhmət də hədər getmir, torpaq bu zəhmətin qarşılığını birə-beş ödəyir. İndi torpağın sahibi olan hər bir şərurlu daha yaxşı yaşayır. Əkir, becərir, həm özünü yaşadır, həm də daxili bazara töhfəsini verir... Belə inkişaf rayonda hər sahədə özünü göstərir. Məsələn, genişhəcmli quruculuq tədbirləri rayonun ayrılmaz həyat ritminə çevrilib. Bölgənin elə bir yaşayış məntəqəsi yoxdur ki, quruculuq prosesi ağuşunda görkəmini dəyişməsin, orada sosial təyinatlı tədbirlər həyata keçirilməsin. Elə 2021-ci ilin ilk rübünün göstəriciləri də bunu təsdiq edir. Bu müddətdə rayonda yeni təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa olunub, yollar çəkilib, körpülər salınıb, su, elektrik təsərrüfatı yaxşılaşdırılıb. Bütün idarə, müəssisə və təşkilatlarda ahəngdar iş rejimi insanların yurd yerinə bağlılığını, işə məsuliyyət hissini, qurub-yaratmaq əzmini xeyli artırıb.***



*İnkişaf edən bölgələrimiz*

# Dövlət qayğısı davamlı olanda



Kiçik bir statistikaya nəzər salaq. Təhsil sahəsi üzrə quruculuq tədbirləri çərçivəsində Şəhriyar kəndində 224 şagird yerlik tam orta və uşaq musiqi məktəbləri binalarının yenidən qurulması başa çatdırılıb, Çərçiboğan və Dərvişlər kəndlərində məktəb binalarının yenidən qurulmasına, Çərçiboğan kəndində isə uşaq musiqi məktəbi binasının tikintisinə start verilib.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində məqsədyönlü tədbirlərin keçirilməsi bu dövrdə də diqqətdə saxlanılıb.



Rayon Mədəniyyət Sarayının və Saat Meydanının, Bayraq Meydanının tikintisi davam etdirilib, Şərur Rayon Mərkəzi Kitabxanası və Uşaq Kitabxanası binasının yenidən qurulmasına başlanılıb.

Bir vaxtlar saatlarla işıq üzünə həsrət qaldığımız muxtar respublika bu gün o çətinliklərdən birdəfəlik qurtarıb, enerji ixracı üçün də burada imkanlar yaradılıb. Rayonda bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Bunun ifadəsidir ki, rayonun Maxta kəndində 35/10 kilovoltluq transformator yarımstansiyasının, Şərur şəhərində yüksəkgərginlikli elektrik xətti üçün tunelin tikintisi başa çatdırılıb, Muğanlı kəndində 35/10 kilovoltluq transformator yarımstansiyasının tikintisi, rayon mərkəzində smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam etdirilib, yanacaqdoldurma stansiyasının yenidən qurulması yekunlaşdırılıb.

"Mədəniyyət yoldan başlanır", – deyimindəki həqiqəti bütün çalarları ilə bu bölgənin timsalında da görmək mümkündür. Hər il bu istiqamətdə həyata keçirilən tədbirlərin həcmi artır. Bunun bariz ifadəsidir ki, bu gün rayonun ən ucqar yaşayış məntəqəsinə rahatlıqla və qısa vaxt ərzində getmək mümkündür. Rayonda müasir yol-nəqliyyat sisteminin qurulması və səmərəli idarə olunması istiqamətində görülən işlərə cari ilin yanvar-mart aylarında da ciddi önəm verilməsinin ifadəsidir ki, Şəhriyar kəndində avtomobil yolu yenidən qurulub. Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx kənd avtomobil, Şərur şəhərinə giriş və daxili avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması davam etdirilib. Çərçiboğan kəndində isə avtomobil yolunun yenidən qurulmasına başlanılıb.

Bu gün Şərur şəhərindən rayonun bütün yaşayış məntəqələrinə, digər rayonlarımıza, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinə marşrutlar işləyir. Marşrutlardan istifadə edənlərə xidmətin səviyyəsini yüksəltmək üçün yeni avtovağzal binasının tikintisinə başlanılması şərurluların böyük sevincinə səbəb olub.

Bölgədə yenidən qurulan obyektlər sırasında Elektrik Təmas Şəbəkəsi, Dövriyyə Deposu inzibati binaları və təmir sexi də var.

Ümumilikdə isə birinci rüb ərzində rayonda 15 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 35 müxtəlif təyinatlı obyektin, 1 yaşayış binasının tikintisi, 1 yaşayış binasının Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binasının yenidən qurulması davam etdirilib. 1 kənd mərkəzi tikilərək istifadəyə verilib, 2 kənd mərkəzinin inşasına başlanılıb.





Bütün bunlar isə insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına göstərilən qayğının təzahürüdür. Bu isə əhalinin həyat səviyyəsini xeyli yaxşılaşdırıb, şərurluların fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib, bəhs olunan dövrdə rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 6 min 991 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Bir neçə ildir ki, muxtar respublikada davam etdirilən əhalinin təmiz və keyfiyyətli içməli su ilə təmin olunması, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində Şərurda da xeyli iş görülüb. Bu dövrdə Sərxanlı kəndində içməli su şəbəkəsinin tikintisi davam etdirilib.

Qeyd edək ki, rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2021-ci ilin birinci rübündə bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyon 228 min 100 manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsaitin dəyəri 6 milyon 959 min 600 manat təşkil edib.

Şərurun iqtisadi həyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda bu sahədə qazanılan uğurlar ildən-ilə artmaqdadır. Kənd təsərrüfatı ilə məşğul olan istehsalçılara yardım və kreditlərin verilməsi bu sahənin inkişafına zəmin yaradıb. Belə məqsədyönlü tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum və gübrə ilə təminatı yaxşılaşdırılıb.

Tarixən Şərur rayonu daxili bazarı keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə təmin edən bölgələrimizdən biri kimi tanınıb.

Belə məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsi, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunması bölgədə bu sahələrə marağı xeyli artırıb. Hər il tərəvəz əkini sahələri genişləndirilir, yeni meyvə bağları salınır. Bölgədə əkinçilik üçün münbit şərait və daim artan dövlət qayğısı hər il yeni uğurlar qazanılmasına imkan verir. Bunun ifadəsidir ki, rayonda 1 aprel 2021-ci il tarixə 803 hektar sahədə yazlıq bitkilər əkilib. Əkin sahəsinin 54 hektarını dənli və dənli-paxlalılar (qarğıdalısız), 107 hektarını dən üçün qarğıdalı, 178 hektarını kartof, 158 hektarını tərəvəz, 6 hektarını ərzaq üçün bostan bitkiləri, 300 hektarını cari ilin çoxillik otları təşkil edir.

Əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək də diqqətdə saxlanılan məsələlərdən birinə çevrilib. Bu məqsədlə ötən dövrdə bir soyuducu anbarın və bir istixana kompleksinin yaradılması davam etdirilib, məhsul istehsalçılarının müasir kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatına ciddi önəm verilib. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 923 min 260 manat dəyərində 74 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə güzəştli şərtlərlə rayonda fəaliyyət göstərən sahibkarlara satılıb.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı istiqamətində 2 heyvandarlıq təsərrüfatının yaradılması və 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılıb, 2 heyvandarlıq təsərrüfatının yaradılması davam etdirilib.

Bu dövrdə rayonda diri çəkidə 1491,4 ton ət, 4659 ton süd, 7502,2 min ədəd yumurta istehsal edilib. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalının 3,4 faiz, süd istehsalının 1,3 faiz, yumurta istehsalının 1,2 faiz artması deməkdir.

İqtisadi cəhətdən xeyli sərfəli olan arıçılığın inkişafı üçün rayonda geniş imkanlar mövcuddur. Odur ki, rayonda bu sahəyə maraq getdikcə artır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq birinci rüb ərzində bu sahədə də müvafiq tədbirlərin görülməsi diqqətdə saxlanılıb, bir arıçılıq təsərrüfatı yaradılıb.

Aqrar sahədə görülən işlərin nəticələri ürəkaçan olub. Belə ki, 8 milyon 282 min 900 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib.

2021-ci ilin birinci rübündə sənaye məhsulunun həcmi 20 milyon 504 min 600 manata, pərakəndə əmtəə dövriyyəsi 71 milyon 967 min manata, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 10 milyon 21 min 400 manata çatıb.

İlin birinci rübündə əhaliyə göstərilən informasiya və rabitə xidmətlərinin səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılıb, məqsədyönlü tədbirlər həyata keçirilib. Bu dövrdə göstərilən xidmətlərin həcmi 1 milyon 988 min 100 manat olub.

Qısaca olaraq onu da qeyd edək ki, rayonda heç bir sahəyə qayğı unudulmayıb, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yeni iş yerlərinin yaradılması bəhrələrini verib.

Görülən işlərə Şərur sakinlərinin münasibəti necədir? Bu suala cavab tapmaq üçün onlardan bir neçəsi ilə həmsöhbət olduq. Təqaüdçü müəllim Fəxrəddin Kərimov dedi:

– Yurdumuzun torpağı münbit, suyu bol, havası saf, adamları sadə, mehriban və qədirbiləndirlər. Bu gün Şərurda elə bir insan tapmaq mümkün deyil ki, ürəyində ulu öndər Heydər Əliyevə sonsuz məhəbbət yaşatmasın. Çünki bu gün qazandığımız bütün uğurlara görə ulu öndərə borcluyuq. Torpaq islahatlarına ilk dəfə olaraq Naxçıvanda başlanılması, bu böyük iqtisadi layihənin uğurla başa çatdırılması hər bir zəhmət adamını öz torpağının həqiqi sahibinə çevirdi. Ümummilli liderimizin müəyyənləşdirdiyi iqtisadi siyasətin bu gün muxtar respublikamızda dönmədən həyata keçirilməsi, ulu öndərin ideyalarına sədaqət Şərur rayonunu da gözəlliklər diyarına çevirib, insanların yaşayış səviyyəsi xeyli yüksəlib. Cari ilə də rayon uğurla başlayıb. İlin ilk rübünün nəticələri də belə deməyə əsas verir. 2021-ci ili yüksək nəticələrlə başa vurmaq üçün şərurlular bütün imkanlarını səfərbər ediblər. Məqsəd isə bölgənin, muxtar respublikanın, nəticə etibarilə, ölkənin iqtisadiyyatının daha da gücləndirilməsinə töhfə verməkdir.

Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru, tarix üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədovanın ürək sözləri:

– Həyatda uğur qazanmaq üçün rastlaşdığın çətinlikləri dəf etməyi bacarmalısan. Şərurlular da çətinliyə dözməyi bacaran insanlardır. Buna baxmayaraq, ötən əsrin 90-cı illərinin əvvəllərində onların da bəzilərində ruh düşkünlüyü sezilirdi. Belələrini qınamaq da olmurdu. Niyə? Məktəb binaları yararsız vəziyyətdə idi, təhsil ocaqları uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi. Səhiyyə xidməti unudulmuşdu, müasir informasiya texnologiyalarından istifadə barədə söhbət etməyə dəyməzdi. Elektrik enerjisi, yanacağın olmaması isə ən böyük dərdlərimizdən idi. Xidmət sahələrinin fəaliyyətini yox səviyyəsində saymaq olardı. Bu gün muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şərur rayonunun da problemləri öz həllini tapıb. Bütün bunlar dövlətimizin öz vətəndaşlarına böyük qayğısının ifadəsidir. Belə qayğı isə insanları yaşadıqları torpağa daha sıx tellərlə bağlayır, onların qurub-yaratmaq əzmini daha da gücləndirir.

Rüb ərzində qazanılmış uğurlara sevinən şərurluların söhbətlərindən bir əsas məqamı oxuculara çatdırmaq yerinə düşər: görülən işlərə minnətdarlıq hissləri. Böyük səmimiyyətlə ifadə olunan belə hisslər təbiidir. Çünki insanlar uzun illər həsrətində olduğu gün-güzərana qovuşduğunu görür və dərindən dərk edirlər ki, bütün bunlar onlar üçündür.

*Görülən işləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ölkəmizdə bərqərar olunmuş sabitlik və sürətli sosial-iqtisadi inkişafla əlaqələndirərək belə xarakterizə edir:* ***"Bu gün ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi islahatlar bütün sahələrin inkişafına səbəb olmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikada da uğurla davam etdirilir... Əhalinin rahatlığı üçün lazımi şərait yaradılır, insanlar hərtərəfli qayğı ilə əhatə olunur, yeni sosial obyektlər tikilərək istifadəyə verilir, fərdi təsərrüfatların genişləndirilməsi üçün lazımi dövlət dəstəyi göstərilir. Bütün bunların həyata keçirilməsi ölkəmizdə Heydər Əliyev siyasi xəttinin davam etdirilməsinin nəticəsində mümkün olmuşdur".***

**Muxtar MƏMMƏDOV**
**Elman MƏMMƏDOV**

# İnsan amili başlıca meyar götürüləndə

***Xalqımız tarixən həkimlik sənətinə ən ülvi bir peşə, həkimə müqəddəs bir şəxs kimi baxıb. Sənətini yaxşı bilən, xalqının sağlamlığı keşiyində ləyaqətlə dayanan həkimlərə "el atası" deyiblər. Dərin ağıllı, mütərəqqi adamlar loğmanla müqayisə edilib. Xalqın müqəddəs saydığı, inanıb etibar etdiyi həkim adını daşımaq bu gün məsuliyyətli, şərəfli bir vəzifə hesab olunur. Belə tanınmış tibb işçilərindən biri də Babək rayonundakı Nehrəm Qəsəbə Sahə Xəstəxanasının baş həkimi Hüseyn Niftəliyevdir.***

Ömrünün 70-ci baharını yaşayan Hüseyn həkim insanlara həssas, qayğıkeş münasibət bəsləməsi, ona üz tutanları naümid qoymaması ilə seçilən səhiyyə işçilərimizdəndir. İndi təkcə Babək rayonunda deyil, muxtar respublika səhiyyəsində Hüseyn həkimi tanımayan az adam tapılar.



Hüseyn Niftəliyev 1975-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsini bitirib. 1975-76-cı illərdə Bakı şəhərindəki 5 nömrəli Uşaq İnfeksion Xəstəxanasında internatura keçib. Sabunçu xəstəxanasında orta tibb işçisi kimi işləyib, burada təcrübəli həkimlərdən məsləhətlər alaraq praktik vərdişlərə yiyələnib. İstedad, zəhmət və ağılla qazanılan uğur illər keçdikcə zənginləşib. O, sənətini çox sevdiyi üçün öz işinə həmişə məsuliyyətlə yanaşıb. Bu keyfiyyətlərinə görə ona 5 saylı xəstəxanada qalıb işləməyi təklif etsələr də o, canı, qanı qədər sevdiyi doğma Naxçıvanda işləməyi daha üstün tutub.

Hüseyn həkim 1976-cı ildən Culfa rayon Yaycı Kənd Xəstəxanasına təyinat alıb və həkim-pediatr kimi işə başlayıb. Yaycı xəstəxanasında işlədiyi 5 ilin 3 ilini xəstəxanada kabinetdə keçirib. Bura onun üçün doğma, isti ocağa çevrilib. Pediatr işləsə də, artıq digər ixtisaslara da yiyələndiyindən bütün sahələr üzrə xəstələr ona müraciət ediblər.

Hüseyn həkim Yaycı xəstəxanasına gələnə qədər xəstəxananın Stasionar uşaq şöbəsi, demək olar ki, fəaliyyət göstərməyib. Gənc həkimin təşkilatçılığı ilə xəstəxanada bu şöbə fəaliyyətə başlayıb və uşaqlar stasionar müalicəyə cəlb olunublar. O vaxtlar Yaycı kəndində uşaq ölümü səviyyəsi həddindən artıq yuxarı idi. Vəziyyətdən çıxış yolu kimi, ilk növbədə, patronaj xidmətinə diqqət artırılıb, xəstə uşaqlar stasionara cəlb olunmaqla, peyvəndləri vaxtında və düzgün aparmaqla uşaq ölümünün səviyyəsi minimuma endirilib.

1979-cu ildə Yaycı kəndində qarın yatalağı xəstəliyi geniş yayılmışdı. Gənc həkim xəstəliyin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlayıb. Həmin müddət xəstələrin aşkar olunmasında və stasionara cəlb edilməsində lazımi köməkliyini göstərib. Xəstəxanada işlədiyi müddətdə neçə-neçə ağır xəstəni ölümdən qurtarıb. Hüseyn Niftəliyev 1982-ci ilin aprel ayında Nehrəm Kənd Xəstəxanasına baş həkim təyin edilib. Sənətinin vurğunu baş həkimliklə bərabər, daha çox uşaqların müalicəsi ilə məşğul olub. İşlədiyi 39 ildə kənddə uşaq ölümünün səviyyəsini sıfra endirilib. Hepatit A virusunun əlamətləri üzə çıxarkən Hüseyn Niftəliyev bütün kollektivlə birlikdə profilaktik tədbirlər aparıb, xəstələri vaxtında stasionara göndərib və infeksiyanın qarşısının qısa müddətdə alınmasına nail olub. Bu uğuruna görə həmin vaxt əməyi qiymətləndirilib və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin fəxri fərmanı ilə təltif edilib. Hüseyn həkim Yeni Azərbaycan Partiyasının üzvü kimi 2005-2010-cu və 2015-2020-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi də səmərəli ictimai fəaliyyət göstərib. 2004-cü ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adı, 2007-ci ildə "Tərəqqi" medalı, 2013-cü ildə muxtar respublikanın inkişafındakı əməyinə görə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə buraxılan "Xatirə" qızıl medalı ilə təltif olunub. 2019-cu ildə isə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülüb.





Nehrəm Qəsəbə Sahə Xəstəxanasının baş həkimi Hüseyn Niftəliyevlə xəstəxananın fəaliyyəti və ümumiyyətlə, muxtar respublikamızda səhiyyənin bugünkü inkişaf səviyyəsi ilə bağlı həmsöhbət olduq. Söhbət zamanı dedi ki, vaxtilə kəndimizdə müxtəlif yerlərdəki yaşayış evlərində birmərtəbəli xəstəxanalar fəaliyyət göstərib. Adi ev şəraitində qurulan xəstəxanaların ozamankı vəziyyətini təsəvvür etmək çox da çətin deyil. Ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən məhz onun təşəbbüsü ilə Nehrəmdə indiki səhiyyə ocağının yerində xəstəxana binası və ayrıca doğum evi tikilib.

Hüseyn həkim deyir ki, bu gün muxtar respublika rəhbəri səhiyyənin dünya standartları səviyyəsinə çatdırılmasına, tibb ocaqlarımızın maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə, yüksəkixtisaslı milli mütəxəssis kadrların yetişdirilməsinə çox böyük qayğı göstərir. Elə çalışdığım Babək rayonunda da əhalinin sağlamlığının möhkəmləndirilməsi naminə diqqətəlayiq tədbirlər həyata keçirilir.

Müsahibim qeyd etdi ki, Nehrəm xəstəxanasının yeni dövrü 2008-ci ilin oktyabr ayından başlayır. Son illərin quruculuq ərməğanlarından olan tibb ocağı müasir avadanlıqlarla təchiz olunub və bu xəstəxanaya təkcə Nehrəmdən yox, muxtar respublikanın bütün bölgələrindən müraciətlər olur, müayinə və müalicələr aparılır. Xəstəxanamızda doğuş, uşaq və terapevtik şöbə, fizioterapiya otağı, laboratoriya, ultrasəslə müayinə və stomatoloji kabinələr fəaliyyət göstərir. Ərazisi 2400 kvadratmetr və 20 çarpayılıq xəstəxana 3 korpusdan ibarətdir.

Baş həkimlə söhbətimiz zamanı onu da əlavə etdi ki, bu gün xəstəxanamızda işinin öhdəsindən layiqincə gələn gənc həkimlər də var. Pediatr Gülarə Baxşıyeva, stomatoloq Arzu Hüseynəliyeva kimi həkimlərin fəaliyyəti insanlarda razılıq doğurur. Ümumiyyətlə, bu sahədə inam çox önəmlidir. Çünki həkimin qoyduğu düzgün diaqnoz, apardığı müalicə effekt verdiyi halda xəstədə ona qarşı bir inam formalaşır. Mütəxəssislər də hesab edirlər ki, xəstənin həkimə olan inamı müalicənin yarısını təşkil edir. Yaxşı haldır ki, bu gün Nehrəm Qəsəbə Sahə Xəstəxanasında xəstəlikləri əvvəlcədən aşkar etmək və müalicə aparmaq üçün hər cür şərait yaradılıb. Xəstəxananın şöbələrində müasir tibbi avadanlıqlar quraşdırılıb və buna görə də pasiyentlər uzaq məsafə qət edib rayon mərkəzinə, yaxud Naxçıvan şəhərinə getmədən tibbi xidmətlə təmin olunurlar. Bu gün coğrafi mövqeyindən asılı olmayaraq, bütün kəndlərimizdə xəstəxana binaları, ambulatoriya və ya feldşer-mama məntəqələri istifadəyə verilib. Baş həkim belə müasir şəraitə malik bir tibb ocağını sakinlərə hədiyyə etdiyi üçün xəstəxananın kollektivi adından muxtar respublika rəhbərinə dərin minnətdarlığını bildirdi.



Xəstəxanada olduğumuz zaman Hüseyn həkim Culfadan gətirilmiş balaca Yusifi müayinə edirdi. Müayinə zamanı biz də Yusifin anası Rəfayə Musayeva ilə həmsöhbət olduq. O dedi ki, Yusif bir neçə gündür, bu xəstəxanada müalicə edilir. Mən də onunla bərabər, burada qalıram. Xəstəxananın həkim kollektivinə, xüsusilə Hüseyn həkimə olan böyük inamımız bizi yanıltmadı. İndi Yusifin vəziyyəti gündən-günə daha da yaxşılaşır. Həkimlərin peşəkarlığı ilə yanaşı, burada yaradılan şərait də ürəyimizcədir. Gördüyünüz kimi, səliqəli, təmiz və işıqlı palatada yerləşdirilmişik. Sanitar-gigiyenik qaydalara tam riayət olunur. Xəstəxananın bütün işçiləri daim bizimlə maraqlanır və qayğımızı çəkirlər.

Culfa rayonunun Ərəfsə kəndindən olan Məhəmməd Cümşüdov övladı bu xəstəxanada şəfa tapan valideynlərdəndir. Onun dediklərindən:

– Qızdırma və qrip bəzən adi xəstəlik kimi qarşılanır. Lakin zamanında müdaxilə edilmədikdə ciddi fəsadlar verir. Oğlumun səhhətində yaranan bu narahatlıq məni Nehrəm xəstəxanasına gəlməyə vadar etmişdi. Həmişə bu xəstəxana və həkimlərinin yüksək peşəkarlığı barədə eşidirdim. Övladımı onlara tərəddüdsüz əmanət etdim. İnamımı doğruldan həkimlərimiz övladımın sağlamlığını yenidən ona qaytardılar. Tibb ocağının yaxşı şəraiti var. Bu gün dünyanın aparıcı şəhərlərinin xəstəxanalarında olan şəraitin eynisi Nehrəm Qəsəbə Sahə Xəstəxanasında da yaradılıb. Bir valideyn kimi bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm. Bu gün Naxçıvanda səhiyyə yüksək səviyyədə inkişaf edib. Artıq insanlar xarici ölkələrə üz tutmadan öz diyarımızda sağlamlıqlarına qovuşurlar.

Xəstəxananın kollektivi Hüseyn həkimin rəhbərliyi ilə təqvimə uyğun olaraq uşaq əhalisinə peyvəndlərin vaxtlı-vaxtında vurulmasını, kütləvi dövri müayinələrin aparılmasını, I-VI sinif şagirdlərinin tuberkulin test sınaqlarına, yuxarı sinif şagirdlərinin isə flüoroqrafik müayinələrə cəlb edilməsini həyata keçirir. Gənc həmkarları bir qayda olaraq məsləhət üçün çəkinmədən ona üz tutur, peşəkarlığı, insanlarla davranma, xəstələrin qəlbini ələ alma sirlərini məhz Hüseyn həkimdən öyrənir, ondan görüb-götürürlər.

Görkəmli oftalmoloq-alim akademik Zərifə Əliyevanın bu sözləri Hüseyn həkimin, elə onun rəhbərlik etdiyi kollektivdə çalışqan digər tibb işçilərinin də həyat kredosudur: *"Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakimimizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?"*

Nehrəm Qəsəbə Sahə Xəstəxanasından aldığımız təəssürat bu oldu ki, ağxalatlı peşə sahibləri daim sağlamlığımızın keşiyindədir. Bu isə bir daha təsdiq edir ki, dövlətimiz insan sağlamlığına, insan amilinə necə yüksək qiymət verir. Əgər adi bir qəsəbə xəstəxanasında ən mürəkkəb cərrahi əməliyyatlar aparılırsa, icbari tibbi sığorta uğurla tətbiq edilirsə, tibbin ən son avadanlıqlarından istifadə olunursa və nəhayət, bu avadanlıqlardan istifadə edə bilən yüksəkixtisaslı peşəkar həkimlər formalaşıbsa, deməli, səhiyyəmiz hərtərəfli dövlət qayğısından bəhrələnərək kifayət qədər inkişaf yolu keçə bilib və hələ neçə-neçə insana dünyanın ən şirin neməti olan sağlamlıq, şəfa bəxş edəcək.

**Hüseyn ƏSGƏROV**

## Buraxılış imtahanı keçirilib

Aprelin 29-da Dövlət İmtahan Mərkəzi tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib.

İmtahan respublikanın 10 şəhər və rayonunda təşkil olunub. İmtahanda 12 min 818 şagird iştirak edib. İmtahanların təşkil edilməsi üçün, ümumilikdə, 69 imtahan binası, 1024 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 69 ümumi imtahan rəhbəri, 166 imtahan rəhbəri, 1271 nəzarətçi-müəllim, 116 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 69 bina nümayəndəsi cəlb edilib. İmtahanlarda 54 fiziki məhdudiyyətli şagird iştirak edib. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, görmə qabiliyyəti olmayanlar üçün fərdi nəzarətçilər təyin edilib.



Naxçıvan Muxtar Respublikasında keçirilən imtahanlarda, ümumilikdə, 2870 şagird iştirak edib. İmtahanın keçirilməsi üçün 242 zal ayrılıb, 35 imtahan rəhbəri, 14 ümumi rəhbər, 291 nəzarətçi cəlb olunub. İmtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib. Zallarda abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

İmtahanın nəticələri yaxın günlərdə elan ediləcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Növbəti tamaşa rayon ictimaiyyətinə uğurla təqdim edilib

*Dünən Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrı Rayon Mədəniyyət Sarayında İftixar Piriyevin "Qanlı qızıl toy" əsəri əsasında hazırladığı tamaşanı rayon ictimaiyyətinə təqdim edib.*

1964-cü ildən fəaliyyət göstərən Ordubad Rayon Xalq Teatrı muxtar respublikanın ilk xalq teatrı kimi zəngin repertuarı ilə hər zaman teatrsevərlərin rəğbətini qazanmış, teatr sənətinin inkişafına dəyərli töhfələr vermişdir. Özünəməxsus yaradıcılıq ənənələri olan teatr muxtar respublikada keçirilən mədəni tədbirlərdə uğurlu çıxışları ilə yadda qalmış, xalq teatrları muxtar respublika festivallarında iştirak edərək diplomlarla mükafatlandırılmışdır. 1989-cu ildə yaradılmasının 25 illiyi ilə əlaqədar "Naxçıvan Muxtar Respublikasının Əməkdar kollektivi" fəxri adına layiq görülmüşdür.

Təqdim olunan yeni səhnə əsəri ötən əsrin 90-cı illərində baş vermiş hadisələrdən və Şuşanın işğalından bəhs edir. Əsərdə II Dünya müharibəsində Berlinə qədər döyüş yolu keçərək qəhrəmanlıq göstərən Şuşa sakini Osman kişinin timsalında humanist duyğular aşılayan ilahi eşq əsas motivi təşkil edir.



Tamaşanın quruluşçu rejissoru Nadir Məhərrəmov, rejissoru Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Günəş Ağayeva, rəssamı Hikmət Əliyev, musiqi tərtibatçısı Qasım Rəsulovdur. Rolları Davud Məmmədov, Süqarə Mirzəli, Rəcəb Quliyev, Nağı Əlisoy və digərləri canlandırıblar. Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrı əsərin ideyasına əsaslanaraq vətənpərvərlik və humanizm hissləri aşılayan psixoloji dram janrında tamaşa yaratmağa nail olub.

Yeni səhnə əsəri rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Rəssamlar Birliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən birgə təşkil olunan rəsm müsabiqəsi Ağbulaq İstirahət Mərkəzində keçirilib.*

## Müsabiqənin qalibləri müəyyənləşdirilib



Tədbirdəki çıxışlarda muxtar respublikada gənclərin yaradıcılıq qabiliyyətinin formalaşdırılması və inkişafı istiqamətində atılan addımlardan bəhs edilib. Qeyd olunub ki, gənclərlə iş daim diqqətdə saxlanılır və yüksələn xətlə inkişaf etdirilir. Əlverişli yaradıcılıq mühitinin mövcudluğu onların müxtəlif sahələrdə öz bilik və bacarıqlarını təkmilləşdirməsi üçün əlavə imkanlar yaradır.

Qeyd edək ki, "Gənc rəssamların incəsənət döyüşü" rəsm müsabiqəsi 26 rəssamın iştirakı ilə keçirilib. Qaydalara əsasən onlar Ağbulaq İstrahət Mərkəzi və Ağbulaq kəndinin ərazisinə aid mənzərələri kətan üzərinə köçürüblər.

Müsabiqənin qalibləri 5 nəfərdən ibarət münsiflər heyətinin ümumi qərarına əsasən müəyyənləşib. Selcan Hacızadə ilə Çinar Hacıyevin rəsm əsərləri birinci yerə layiq görülüb. Türkan Əsədova, Tənzilə İbadova və Cəlil Xudiyev ikinci sırada qərarlaşıblar. Özcan Babayev, Gülçöhrə Abbasova və Jalə Cəfərlinin rəsm nümunələri isə üçüncü yerlə qiymətləndirilib.

Müsabiqə qalibləri təşkilatçılar tərəfindən diplom, fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Elan

Bildirilir ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində muxtar respublikada informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurası yaradılacaqdır. Ekspert Şurası informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspert rəyindən razı olmayan hüquqi və ya fiziki şəxslərin (ekspertizanı sifariş edən şəxslərin) şikayətlərinə baxacaqdır. Ekspert Şurası ictimai əsaslarla fəaliyyət göstərəcəkdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi muxtar respublikada informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının tərkibinə daxil ediləcək müstəqil ekspertlərin seçilməsi və onlara ixtisas attestatının verilməsi məqsədilə müsabiqə elan edir.

***Müsabiqənin şərtləri aşağıdakılardan ibarətdir:***

* Ekspert Şurasının tərkibinə daxil ediləcək müstəqil ekspertin müsabiqədə iştirak etməsi üçün ekspertin fəaliyyət göstərdiyi ekspert təşkilatı tərəfindən komitəyə müraciət olunmalıdır.

* Ekspertlərə ixtisas attestatının verilməsi üçün müraciət edən Ekspert Təşkilatı qanunvericiliyin tələbinə uyğun olaraq ən azı üç (3) ekspert ştatına malik olmalıdır.

* Müsabiqə test imtahanından və müsahibə mərhələsindən ibarətdir.

* Test imtahanı 30 (otuz) sualdan ibarət olmaqla, 1 (bir) saat müddətində keçiriləcək və hər düzgün cavab 1 (bir) balla, düzgün olmayan cavab və ya cavabsız saxlanılan sual isə "0" balla qiymətləndiriləcəkdir. Test imtahanından 25 (iyirmi beş) və daha çox bal toplamış namizədlər müsahibə mərhələsinə buraxılırlar.

* Test imtahanının keçirildiyi vaxt və yer barədə məlumat imtahandan 3 (üç) gün əvvəl komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdiriləcək və namizədlərə sifarişli poçt bildirişi və ya elektron qaydada göndəriləcəkdir.

* Müsabiqə və müsahibə proqramı komitənin rəsmi internet informasiya ehtiyatında yerləşdiriləcəkdir.

***Ekspert Şurasının tərkibinə daxil ediləcək ekspert namizədləri aşağıdakı şərtlərə uyğun olmalıdır:***

* Namizədlər pedaqogika, psixologiya və ya uşaq psixiatriyası sahəsində ali təhsilə malik olan şəxslər olmalıdır.

* Həyat və sağlamlıq əleyhinə ağır və xüsusilə ağır cinayətlər, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri və ya ictimai mənəviyyat əleyhinə və sair cinayətlər törətməyə görə məhkum edilmiş şəxslər ekspert kimi fəaliyyət göstərə bilməzlər.

* Namizədlər elektron qaydada və ya birbaşa müraciət edə bilərlər.

* Elektron qaydada müraciət edildikdə, müraciət forması ekspert təşkilatının rəhbərinin və ya nümayəndəsinin elektron imzası ilə təsdiq edilir.

***Müraciətə aşağıdakı sənədlər əlavə edilir:***

*1. Ekspert təşkilatının vəsatəti*

*2. Ekspertizanı keçirmək istəyən şəxsin ərizəsi*

*3. Ekspertizanı keçirmək istəyən şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti*

*4. Ekspert təşkilatı ilə namizəd arasında bağlanmış əmək müqaviləsinə dair Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "əmək müqaviləsi bildirişi" üzrə elektron informasiya sistemindən çıxarış*

*5. Müvafiq sahə üzrə ali təhsil haqqında diplomun surəti*

*6. İxtisas üzrə iş stajını təsdiq edən əmək kitabçasının surəti*

*7. Məhkumluq barədə arayış (varsa)*

*8. Ekspert təşkilatının VÖEN-i*

Bildirilir ki, təqdim edilmiş sənədlərə komitə tərəfindən qanunvericiliyə uyğun olaraq 10 (on) iş günü müddətində baxılaraq, namizədin müsabiqəyə buraxılması haqqında qərar qəbul edilir, sifarişli poçt bildirişi ilə və ya elektron qaydada ekspert təşkilatına göndərilir.

Müsabiqədə iştirak etmək arzusunda olan ekspert təşkilatları qeydiyyatdan keçmələri üçün qanunvericiliyin tələblərinə uyğun olaraq komitənin rəsmi internet informasiya ehtiyatlarında *(aqupdk.nakhchivan.az)* yerləşdirilmiş müraciət formasını müvafiq sənədləri əlavə etməklə elektron qaydada doldura və ya birbaşa müraciət edə bilərlərlər.

***Əlaqə telefonu: (036) 550-46-58***

## Vaksinasiya işləri davam etdirilir



"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq muxtar respublikanın bütün rayonlarında yaşı 40 və daha yuxarı olan təhsil işçiləri "Sinovac" vaksininə cəlb ediləcəklər.

Culfa Rayon Mərkəzi Xəstəxanasında bu tədbirə start verilib. 40 yaşdan yuxarı 400 təhsil işçisinin vaksinasiyası nəzərdə tutulub. Vaksinasiya üçün xüsusi peyvənd otaqları yaradılaraq zəruri avadanlıqlarla təchiz edilib.

Gün ərzində xüsusi işçi qrupu tərəfindən 320 təhsil işçisi "Sinovac" vaksininə cəlb edilib. Təhlükəsizliyinə və effektivliyinə görə seçilən bu vaksinasiyada heç bir narahatlıq müşahidə olunmayıb.

Hazırda Culfa şəhər və kənd məktəblərinin 365 nəfərlik texniki heyəti vaksinasiyaya cəlb edilib. Artıq onlardan 350 nəfəri ilk doza alıb.

Qeyd edək ki, 2-ci doza vaksinasiya ilk peyvənddən 28 gün sonra həyata keçiriləcəkdir.

Vaksinasiyanın əsas məqsədi koronavirus pandemiyasının, virusa yoluxma və ölüm səviyyəsinin qarşısını almaqdır.

*"Naxçıvan" Universitetində Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq, yazıçı-publisist Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Yadigarla görüş keçirilib.*

## Tanınmış şair-dramaturqla görüş



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf tarixində Naxçıvan ədəbi mühitinin özünəməxsus yeri var. İstər ədəbi-bədii yaradıcılıq, istərsə də elmi-tədqiqat sahəsində naxçıvanlı qələm sahibləri həmişə öz sözlərini deyib, ədəbiyyatşünaslığımıza layiqli töhfələr veriblər. Bu şairlər içərisində Asim Yadigarın özünəməxsus yeri və rolu var. Asim Yadigar Azərbaycan ədəbiyyatının inkişafında, gənclərimizə vətənpərvərlik duyğularının aşılanmasında və yeni ədəbi gəncliyin yetişməsində mühüm xidmətlər göstərib. Onun müxtəlif vəznlərdə 600-dən artıq şeiri çap edilib. Şairin rübailəri, qəzəlləri, təxmisləri, məsnəviləri klassik şeir nümunələri kimi böyük maraq kəsb edir. Asim Yadigar yaradıcılığında ümummilli lider Heydər Əliyevə həsr olunan "Heydər zirvəsi", "Dədə Heydərim mənim" və "Gəldi ulu Heydərin İlham dühası, gəldi", "Bir nurlu heykəl yarat", "Azərbaycan dünyaya Günəş kimi doğacaq", "Azərbaycan bayrağına", "Bir bayraq altında", "Vətən oğlu", "Döyüş əmri ver mənə" kimi şeirləri ədəbi mühitdə siyasi lirikamızın gözəl nümunələrindəndir.

Filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli şairin həyat yolu və yaradıcılığı haqqında geniş məlumat verib. Bildirib ki, tələbələrin yaradıcı insanlarla görüşü onların xatirəsində əbədi qalır.

Görüşdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq, yazıçı-publisist Asim Yadigar tədbirin təşkili üçün universitet rəhbərliyinə minnətdarlıq edib. Əsərlərinin yazılma tarixindən, unudulmaz xatirələrindən danışan yazar qeyd edib ki, 6 pyes, 18 roman, 600-ə yaxın şeir, xeyli sayda kitab müəllifi kimi gənclərin əhatəsində olmaq həmişə xoş təəssürat yaradır. Şair sevilən şeirlərindən bir neçəsini səsləndirdikdən sonra tələbələrin suallarını cavablandırıb, kitablarından bəzilərini iştirakçılara hədiyyə edib.

Tədbirin sonunda "Naxçıvan" Universitetinin kollektivi adından Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq, yazıçı-publisist Asim Yadigara hədiyyə təqdim olunub.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## İmmunlaşdırma həftəsi

***Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən başlayaraq Avropa regionunda "İmmunlaşdırma həftəsi" keçirilir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi də bu tədbirlərdə fəal iştirak edir.***

Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası tərəfindən bu tədbiri mütəşəkkil keçirmək üçün peyvənddən yayınmış 250 uşağın siyahısı hazırlanıb, həmin uşaqlar xəstəxanaya dəvət ediliblər. Artıq onların 171 nəfərində peyvənd işi başa çatdırılıb.



Şahbuz Rayon Mərkəzi Xəstəxanasında isə müxtəlif səbəbə görə immunlaşdırmadan kənarda qalan altı yaşa qədər 5 uşaq peyvəndlərə cəlb edilib. Daha 7 uşağın isə peyvənd olunması nəzərdə tutulub.

İmmunlaşdırma həftəsinin nəticələri haqqında məlumat Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim ediləcək və peyvəndlərlə əhatə səviyyəsinə nəzarət məqsədilə muxtar respublikanın rayonlarında monitorinqlər keçiriləcək.

Qeyd edək ki, uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Odur ki, əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir. Həmin tədbirlərin davamı olaraq 2018-ci il oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalanıb. Dövlət proqramının məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə, onların arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasından ibarətdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Tələbələr üçün praktik təlim təşkil olunub

*Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində praktik təlim təşkil olunub. Təlimdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin hamiliyinə verilmiş Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə II kurs tələbələri iştirak ediblər.*

Fakültənin dekanı Əşrəf Ələkbərov "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəisi, İqtisadiyyat və idarəetmə fakültəsinin müəllimi Səttar Zamanov çıxışında həmin sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində nazirlik tərəfindən görülən işlər barədə məlumat verib, nazirliklə universitet arasında təsdiq edilmiş tədbirlər planı üzrə görülən işlərin əhəmiyyətini vurğulayıb.



Nazirliyin Bələdiyyələrlə iş mərkəzinin rəisi Xəyal Eyvazov slayd vasitəsilə tələbələrə bələdiyyə orqanlarına göstərilən metodoloji yardımın və inzibati nəzarətin aparılması qaydaları barədə geniş məlumat verib. Bildirilib ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi qanunla müəyyən edilir. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa görə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

Təlimdə tələbələrə nazirliyə bələdiyyələr tərəfindən daxil olan aktlar, qərarlar, protokollar, sorğular barədə ətraflı məlumat verilib, sənəd nümunələri əyani şəkildə nümayiş etdirilib.

Təlim qarşılıqlı müzakirələr əsasında davam edib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Firdovsi küçəsi ev 27 ünvanında Abdullayev M.Əli Abdulla oğlunun adına olan fərdi yaşayış evinin 2174 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Atatürk küçəsi döngə 1, ev $3^{A}$-da yaşamış Səfərov Behruz Rafiq oğlunun adına olan evin 19065 inventar nömrəli texniki pasportu və MH-0065667 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 360